# Uşaqlara kitab töhfəsi

Aida AYSA




● ***YUNESKO-nun qərarilə hər il aprelin 2-si bütün dünyada Uşaq Ədəbiyyatı günü kimi qeyd olunur. Bu öz nağılları ilə bütün dünya uşaqlarına yaxşı tanış olan böyük Danimarka yazıçısı Hans Xristian Andersonun təvəllüdü ilə bağlıdır.***

Elə bu münasibətlə dünən Yazıçılar Birliyində tədbir keçirildi. Tədbirdə böyüklərlə yanaşı, müxtəlif orta məktəblərdən gəlmiş uşaqlar da iştirak edirdilər.

Xalq yazıçısı Fikrət Qoca qonaqları salamladıqdan sonra sözü uşaq ədəbiyyatı bölməsinin sədri Əli Səmədliyə verdi. Uşaq ədəbiyyatının kiçikyaşlıların mənəvi tərbiyəsindəki rolundan, onların bir şəxsiyyət kimi formalaşmasına təsirindən danışan Əli Səmədli qeyd etdi ki, 50 cilddən ibarət dünya uşaq ədəbiyyatı toplusunun müasir uşaqlarımıza çatdırılması üçün latın qrafikasına faksimile-transiterasiyasına ehtiyac var. Daha sonra uşaq ədəbiyyatını daha çox araşdıranlardan biri olan ədəbiyyat nəzəriyyəçisi, professor Qara Namazov çıxış edərək əlifbanın dəyişdirilməsi ilə yaranan bir sıra çətinliklərdən, uşaqlarda bədii ədəbiyyata marağın azalmasından və dərsliklərdəki nöqsanlar kimi bir sıra problemlərdən danışdı. O, həmçinin missionerlər tərəfindən xristian ehkamlarını təbliğ edən kitabların uşaqlara paylanması ilə bağlı narahatçılığını da bildirdi. Qeyd edək ki, Turan nəşriyyatı da son vaxtlar uşaqlar üçün nəfis tərtibatla bir sıra kitablar çap edib. "Qaçaq Nəbi", "Koroğlu" dastanları, İvan Krılovun "Cırcırama və qarışqa" şerilə tərtib edilmiş özün rənglə kitabı, Ə. Haqverdiyevin "Marallarım" hekayələr toplusu, Cəlil Məmmədquluzadənin "Hekayələr"i Abdulla Şaiqin şerləri daxil edilmiş "Ay pipiyi qan xoruz" kitabı, "Bəhlul Danəndənin lətifələri", "Çin nağılları" körpə balalar üçün çox gözəl töhfədir.

"Turan" nəşriyyatının direktoru Oqtay Hüseynov çıxış edərək kitabları iştirakçılara təqdim etdi.